## *Azərbaycan ictimaiyyətindən Nobel Komitəsinə açıq məktub:*

# Qorbaçovun Sülh Mükafatından məhrum edilməsi barədə tarixi qərara imza atın

**Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri, ictimai fəalları, 20 Yanvar şəhidlərinin ailə üzvləri, 20 Yanvar veteranları Norveç Nobel Komitəsinin sədrinə və üzvlərinə açıq məktub ünvanlayıblar. AZƏRTAC məktubu təqdim edir:**



Jørgen Watne Frydnes



Asle Toje



Anne Enger



Kristin Clemet



Gry Larsen

"Hörmətli Norveç Nobel Komitəsinin sədri cənab Jorgen Watne Frydnes!

Hörmətli Norveç Nobel Komitəsinin üzvləri - cənab Asle Toje, xanım Anne Enger, xanım Kristin Clemet, xanım Gry Larsen!

Biz - Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri, 20 Yanvar şəhidlərinin ailə üzvləri və 20 Yanvar veteranları, ictimai fəallar Sizə 1990-cı ilin oktyabrında Norveç Nobel Komitəsi tərəfindən Nobel Sülh Mükafatı ilə təltif olunmuş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovla əlaqədar müraciət edirik.

Mixail Qorbaçovun hələ də Nobel Sülh Mükafatı laureatı adını daşıması bu mükafatın tarixində ən böyük ədalətsizlikdir. Sizdən bu qara ləkəni təmizləməyi, Azərbaycan xalqına qarşı yol verilmiş haqsızlığı aradan qaldırmağı, Mixail Qorbaçovun həmin mükafatdan məhrum edilməsini xahiş edirik.

Azərbaycan xalqı hər il 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet qoşunlarının Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilməsi, dinc əhalinin ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutulması nəticəsində ümumilikdə 150 nəfərin kütləvi şəkildə qətlə yetirilməsinin ildönümünü qeyd edir, cəllad Mixail Qorbaçovu lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini ifadə edir. Mixail Qorbaçov Bakıya, dinc əhaliyə qarşı qoşun yeridilməsi əmrini şəxsən verib və kütləvi qətllərə görə birbaşa məsuliyyət daşıyır. Bu cinayətin qanlı izi silinməzdir.

20 Yanvar faciəsini törədən cinayətkarların ədalət mühakiməsinə cəlb olunması üçün kifayət qədər hüquqi əsaslar mövcuddur. Bu hadisə hər şeydən əvvəl BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlərin, konvensiyaların tələblərinin pozulması faktıdır. 20 Yanvar faciəsi bəşəriyyət əleyhinə cinayətdir, bu hadisə zamanı dinc insanlar qətlə yetirilib, yaralanıb, oğurlanıb, işgəncələrə məruz qalıb. Bütöv bir xalqa qarşı tarixi cinayət törədilib.

20 Yanvar qırğını SSRİ-nin ədalətsiz siyasətinə etiraz edən Azərbaycan xalqının azadlıq, müstəqillik mübarizəsinin boğulması üçün əvvəlcədən planlaşdırılmış dövlət cinayətidir. Bu kütləvi qırğın Sovet hakimiyyətinə qarşı 1956-cı il Macarıstandakı, 1968-ci il Çexoslovakiyadakı qanlı hadisələrlə eyni sırada dayanır.

Böyük ağrı hissi ilə deyə bilərik ki, məhz bu qırğından sonra Norveç Nobel Komitəsi tərəfindən əlləri Azərbaycan xalqının qanına batmış Mixail Qorbaçovun Nobel Sülh Mükafatı ilə təltif edilməsi bizim üçün 20 Yanvar kədəri qədər əzablıdır.

Azərbaycan ictimaiyyəti uzun illərdir ki, bu ədalətsizliyin bir gün mütləq aradan qaldırılacağına inamını itirməyib.

Mixail Qorbaçovun əmri ilə törədilmiş bu dəhşətli cinayət Azərbaycan xalqının əzmini qıra bilmədi, bir il sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi.

Nobel qardaşları Azərbaycan tarixində müstəsna iz buraxıb. Lakin təəssüf edirik ki, həyatının ən vacib hissələri Bakıdakı uğurları ilə sıx bağlı olan Nobelin arzusu olan mükafatlar Azərbaycan xalqının qanını axıtmış Mixail Qorbaçova verilib.

Mixail Qorbaçovu mükafatından məhrum etmək qərarınız dünya ictimaiyyətinin ədalətə və Nobel Sülh Mükafatının mənəvi nüfuzuna inamını gücləndirərdi. Buna ciddi ehtiyac var.

Biz ümid edirik ki, siz Nobel dəyərlərinin təhqir edilməsinə göz yummayacaq, Azərbaycan xalqının, eləcə də keçmiş Sovet İttifaqının digər xalqlarının dərin nifrətini qazanmış Mixail Qorbaçovun Nobel Sülh Mükafatından məhrum edilməsi barədə qərara imza atmaqla tarixi ədaləti bərpa edəcəksiniz.

*Hörmətlə,*

*Ramil İSKƏNDƏRLİ - Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri*
*Eldar QULİYEV - Azərbaycan Ağsaqqallar Şurasının sədri*
*Novruzəli ASLANOV - Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sədri*
*Əmir ƏLİYEV - "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyinin sədri*
*Cəlil XƏLİLOV - Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının İdarə Heyətinin sədri*
*Novella CƏFƏROVA - D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyətinin sədri*
*Səidə QOCAMANLI - İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri*
*Səadət BƏNƏNYARLI - Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti-Azərbaycan Milli Bölməsinin İdarə Heyətinin sədri*
*Əliməmməd NURİYEV - "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti*
*Zaur İBRAHİMLİ - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri*
*Dilqəm ƏHMƏD - "Çapar - Milli İrsin Tədqiqi Mərkəzi" İctimai Birliyinin sədri*
*Azər ALLAHVERƏNOV - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri*
*Mayis ƏLİYEV - "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri*
*Davud RƏHİMLİ - Əlil Təşkilatlar İttifaqının sədri*
*Umud MİRZƏYEV - Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti*
*Könül BEHBUDOVA - "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri*
*Sevinc ALIZADƏ - "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri*
*Mehriban MƏMMƏDOVA - "Humanitar Tədqiqatlar" İctimai Birliyinin sədri*
*Xalid KAZIMOV - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri*
*Telman QASIMOV - "Elmi Araşdırmalar" İctimai Birliyinin sədri*
*Mehdi MEHDİYEV - Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri*
*Füzuli RZAQULİYEV - "Azərbaycan Vətən Müharibəsi Veteranları" İctimai Birliyinin sədri*
*Naibə BEHBUDOVA - "Qürur" Şəhid Ailələri Xeyriyyə İctimai Birliyinin sədri*
*Aqil CAMAL - "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri*
*Əhməd ABBASBƏYLİ - "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri*
*20 Yanvar şəhidi Mirzə Qəniyevin ailə üzvü Gülarə MƏMMƏDOVA*
*20 Yanvar şəhidi Allahyar Nəsibovun ailə üzvü Nurayə SƏFƏROVA*
*20 Yanvar şəhidi Kərimov İlqarın ailə üzvü Lətifə KƏRİMOVA*
*20 Yanvar şəhidi Nurəddin Ağahüseynovun ailə üzvü Şirnayə AXUNDOVA*
*20 Yanvar şəhidi Azad Rzayevin ailə üzvü Dilarə RZAYEVA*
*20 Yanvar şəhidi Bəxtiyar Hüseynovun ailə üzvü Nənəbəyim QULİYEVA*
*20 Yanvar şəhidi Elçin İmanovun ailə üzvü Beydulla İMANOV*
*20 Yanvar şəhidi Yanvar Nəsirovun ailə üzvü Almara NƏBİYEVA*
*20 Yanvar şəhidi İbiş Məmmədovun ailə üzvü Zəri BABAYEVA*
*20 Yanvar şəhidi Rasim Muxtarovun ailə üzvü Firəngiz MUXTAROVA*
*20 Yanvar şəhidi Asif Əsədullayevin ailə üzvü Rəfiqə ƏSƏDULLAYEVA*
*20 Yanvar şəhidi Məmmədəli İsmayılovun ailə üzvü İsmayıl İSMAYILOV*
*20 Yanvar şəhidi Oqtay Kərimovun ailə üzvü Minarə KƏRİMOVA*
*20 Yanvar şəhidi Ağamehdi İbadzadənin ailə üzvü Sona İBADZADƏ*
*20 Yanvar şəhidi Mehman Həsənovun ailə üzvü Səmayə MUSAYEVA*
*20 Yanvar şəhidi Zahir Nuriyevin ailə üzvü Validə NURİYEVA*
*20 Yanvar şəhidi Yusif Sadıqovun ailə üzvü Kəhriz SADIQOVA*
*20 Yanvar şəhidi Taryel Abduyevin ailə üzvü Məlahət ƏLİYEVA*
*20 Yanvar şəhidi Tofiq Novruzovun ailə üzvü Səidə MEHDİYEVA*
*20 Yanvar şəhidi Yusif Qasımovun ailə üzvü Reyhanə Meşkinçapaqani*
*20 Yanvar şəhidi Cəbrayıl Xanməmmədovun ailə üzvü Şövkət XANMƏMMƏDOVA*
*20 Yanvar şəhidi Fuad Mövludovun ailə üzvü Dilarə MÖVLUDOVA*
*20 Yanvar şəhidi Ağabəy Novruzbəylinin ailə üzvü Oktay NOVRUZBƏYLİ*
*20 Yanvar şəhidi Anar Məmmədovun ailə üzvü Vilen MƏMMƏDOV*
*20 Yanvar şəhidi Nüsrət Yaqubovun ailə üzvü Dilşad ƏSKƏROVA*
*20 Yanvar şəhidi İsfəndiyar Zülalovun ailə üzvü Təranə ZÜLALOVA*
*20 Yanvar şəhidi Tenqız Turabovun ailə üzvü Şirmayı TURABOVA*
*20 Yanvar şəhidi Aslan Ağaverdiyevin ailə üzvü Zərifə AĞAVERDİYEVA*
*20 Yanvar şəhidi İsmayıl Mursaqulovun ailə üzvü Gülüş MURSAQULOVA*
*20 Yanvar şəhidi Firuz Cabbarovun ailə üzvü Rəfiqə CABBAROVA*
*20 Yanvar şəhidi Sahib Həsənovun ailə üzvü Ruhəngiz HƏSƏNOVA*
*20 Yanvar şəhidi Rövşən Rüstəmovun ailə üzvü Ziyafət RÜSTƏMOVA*
*20 Yanvar şəhidi Mircamal Əbülfətovun ailə üzvü Rəna ƏBÜLFƏTOVA*
*20 Yanvar şəhidi Bayram Əliyevin ailə üzvü Zahirə ƏLİYEVA*
*20 Yanvar şəhidi Vaqif Mirzəyevin ailə üzvü Mehparə MİRZƏYEVA*
*20 Yanvar şəhidi Rəşid İsmayılovun ailə üzvü Elmira İSMAYILOVA*
*20 Yanvar şəhidi Baba Xamməsdovun ailə üzvü Şərqiyyə BABAZADƏ*
*20 Yanvar şəhidi Zabulla Əliyevin ailə üzvü Ümsələmə ƏLİYEVA*
*20 Yanvar şəhidi Rahim Babayevin ailə üzvü Yaqut QULİYEVA*
*20 Yanvar şəhidi İsabala Bayramovun ailə üzvü Nəzirə BAYRAMOVA*
*20 Yanvar şəhidi İlqar İbrahimovun ailə üzvü Yekaterina İBRAHİMOVA*
*20 Yanvar şəhidi Zahid Abdullayevin ailə üzvü Zeynəb ABDULLAYEVA*
*20 Yanvar şəhidi Baloğlan Bağırovun ailə üzvü Aybəniz BAĞIROVA*
*20 Yanvar şəhidi Zahid Əliyevin ailə üzvü Roza BAĞIROVA*
*20 Yanvar şəhidi Anagəldi Durdiyevin ailə üzvü Mənsurə QƏHRƏMANOVA*
*20 Yanvar şəhidi Səxavət Məmmədovun ailə üzvü Şəhla MƏMMƏDOVA*
*20 Yanvar şəhidi Ülvi Bünyadzadənin ailə üzvü Kifayət BÜNYADZADƏ*
*20 Yanvar şəhidi Faiq Əlizadənin ailə üzvü Kəmalə ƏLİZADƏ*
*20 Yanvar şəhidi Musa Adilovun ailə üzvü Xatirə ADİLOVA*
*20 Yanvar veteranı Sultan ƏZİMZADƏ*
*20 Yanvar veteranı Eyşan İSKƏNDƏROV*
*20 Yanvar veteranı İmran İSKƏNDƏRZADƏ*
*20 Yanvar veteranı Mübariz İSMAYILOV*
*20 Yanvar veteranı Şahin İMAMƏLİYEV*
*20 Yanvar veteranı Bafadar İBRAHİMLİ*
*20 Yanvar veteranı Salman ƏHƏDLİ*
*20 Yanvar veteranı Rövşən CAHANGİROV*
*20 Yanvar veteranı Akif NƏSİROV*
*20 Yanvar veteranı Asif İBRAHİMOV*
*20 Yanvar veteranı Soltan ABBASOV*
*20 Yanvar veteranı Gülağa ŞƏRİFZADƏ*
*20 Yanvar veteranı Samir PİRİYEV*
*20 Yanvar veteranı Emil ƏLAYİ*
*20 Yanvar veteranı Tahir FƏTULLAYEV*
*20 Yanvar veteranı Valeh HÜSEYNOV*
*20 Yanvar veteranı Rövşən ABBASOV*
*20 Yanvar veteranı Səttar BƏDƏLOV*
*20 Yanvar veteranı Şakir AZADƏLİYEV*
*20 Yanvar veteranı Sadiq QULUZADƏ*
*20 Yanvar veteranı Fəridə MURADOVA*
*20 Yanvar veteranı Əsəd ƏSƏDZADƏ*
*20 Yanvar veteranı Vaqif NAMAZOV*
*20 Yanvar veteranı Asim HÜSEYNOV*
*20 Yanvar veteranı Ramiz HÜSEYNOV*
*20 Yanvar veteranı Abdulla AĞAZADƏ*
*20 Yanvar veteranı Hüseyn MƏMMƏDOV".*

Azərbaycan. - 2025.- 19 yanvar (№ 12).- S.6.